# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

### “Azərsilah” Müdafiə Sənayesi Holdinqi” Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin, strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında

“Azərsilah” Müdafiə Sənayesi Holdinqi” Qapalı Səhmdar Cəmiyyətinin yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli 462 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 sentyabr tarixli 2318 nömrəli Fərmanının 6.1.2-ci və 6.1.3-cü yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərsilah” Müdafiə Sənayesi Holdinqi” Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).
2. “Azərsilah” Müdafiə Sənayesi Holdinqi” Qapalı Səhmdar Cəmiyyətinin strukturu” təsdiq edilsin (əlavə olunur).
3. “Azərsilah” Müdafiə Sənayesi Holdinqi” Qapalı Səhmdar Cəmiyyətinin işçilərinin say həddi 118 ştat vahidi müəyyən edilsin.
4. Bu Qərarın 1-ci hissəsində dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 20 fevral 2024-cü il

№ 94

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 20 fevral
tarixli 94 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin

# NİZAMNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət) "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli 462 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 sentyabr tarixli 2318 nömrəli Fərmanına (bundan sonra – Fərman) əsasən yaradılmışdır.

1.2. Cəmiyyət silah istehsalının, ixracının və satışının təşkilini həyata keçirən, tabeliyində olan hüquqi şəxslərin vahid prinsiplər əsasında idarə edilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, onların maliyyə sabitliyinin və dayanıqlılığının yaxşılaşdırılması sahəsində işləri yerinə yetirən kommersiya hüquqi şəxsdir.

1.3. Cəmiyyət Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində fəaliyyət göstərir.

1.4. Cəmiyyət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Mülki Məcəlləsini, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərarlarını və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.5. Cəmiyyətin müstəqil balansı, mülkiyyətində olan əmlakı, bank hesabları, Nazirliyin adı və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları, blankları, bayraq, loqotip (emblem) və əmtəə nişanı vardır.

1.6. Qanuna uyğun olaraq Cəmiyyətin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Cəmiyyət məhkəmədə, həmçinin arbitrajlarda iddiaçı və ya cavabdeh qismində çıxış etmək hüququna malikdir.

1.7. Cəmiyyətin rəsmi adı aşağıdakı kimidir:

1.7.1. tam halda – "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyəti;

1.7.2. qısaldılmış halda – "Azərsilah" QSC;

1.7.3. ingilis dilində tam halda – "Azersilah" Defence Industry Holding" Closed Joint Stock Company;

1.7.4. ingilis dilində qısaldılmış halda – "Azersilah" CJSCo.

1.8. Cəmiyyət Bakı şəhərində yerləşir.

## 2. Cəmiyyətin fəaliyyətinin istiqamətləri

2.1. Cəmiyyətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. silahların istehsalının, satışının və ixracının təşkilini həyata keçirmək;

2.1.2. tabeliyində olan hüquqi şəxslərin vahid prinsiplər əsasında idarə olunması, fəaliyyətinin təkmilləşdirilməsi, onların maliyyə sabitliyinin və dayanıqlılığının yaxşılaşdırılması sahəsində işləri yerinə yetirmək;

2.1.3. Azərbaycan Respublikasının müdafiə sənayesinin müasir tələblərə uyğunlaşdırılması baxımından bu sahəyə istehsal və kadr resurslarının, eləcə də investisiyaların cəlb olunmasını təmin etmək;

2.1.4. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Cəmiyyətin hüquq və vəzifələri

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Cəmiyyətin vəzifələri aşağıdakılardır:

3.1.1. silahların istehsalı, satışı və ixracı sahəsində qəbul edilmiş normativ hüquqi aktların, inkişaf konsepsiyaları və məqsədli proqramların həyata keçirilməsində iştirak etmək;

3.1.2. silahların istehsalı, satışı və ixracının təşkili sahəsində tədbirlər görmək;

3.1.3. müasir istehsal texnologiyalarının tətbiqi, habelə elmi-tədqiqat və təcrübi-konstruktor layihələrini həyata keçirməklə yeni silahların yaradılmasını təmin etmək;

3.1.4. yeni istehsal sahələrinin yaradılmasını, eləcə də mövcud sahələrin təkmilləşdirilməsi ilə silahların davamlı istehsalını təmin etmək;

3.1.5. silahların modernləşdirilməsini, habelə təmirini və utilizasiyasını təmin etmək;

3.1.6. tabeliyində olan hüquqi şəxslərin vahid prinsiplər əsasında idarə olunması, fəaliyyətinin təkmilləşdirilməsi, onların maliyyə sabitliyinin və dayanıqlılığının yaxşılaşdırılması sahəsində işlərin yerinə yetirilməsi üçün tədbirlər görmək;

3.1.7. Cəmiyyətin, idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyində olan hüquqi şəxslərinin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məqsədilə təkliflər hazırlamaq və tədbirlər görmək;

3.1.8. tabeliyində olan hüquqi şəxslərin inkişafına nail olmaq, həmin müəssisələrin və Cəmiyyətin istifadəsində olan əmlakın qorunub saxlanmasını və səmərəli istifadəsini təmin etmək;

3.1.9. tabeliyində olan hüquqi şəxslərin ixrac potensialına təsir edən amillərin araşdırılmasını təmin etmək və bu istiqamətdə həyata keçiriləcək tədbirlərə dair təkliflər vermək;

3.1.10. satınalmaları “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin tələblərini nəzərə alınmaqla həmin Qanuna uyğun olaraq həyata keçirmək;

3.1.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq ətraf mühitin mühafizəsi ilə bağlı müvafiq tədbirlər görmək;

3.1.12. fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görmək;

3.1.13. Cəmiyyətin fəaliyyət istiqamətləri üzrə riskləri müəyyənləşdirmək, qiymətləndirmək və idarə etmək;

3.1.14. bu Nizamnamədə nəzərdə tutulan digər vəzifələri yerinə yetirmək.

3.2. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Cəmiyyətin hüquqları aşağıdakılardır:

3.2.1. Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq xarici ölkələrin aidiyyəti dövlət qurumları, eləcə də dövlətə məxsus və özəl hüquqi şəxslərlə hərbi-texniki sahədə əməkdaşlıq həyata keçirmək, o cümlədən xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.2. Cəmiyyətin filial və nümayəndəliklərini yaratmaq, habelə tabeliyində hüquqi şəxslərin yaradılması ilə bağlı təkliflər vermək;

3.2.3. Cəmiyyətin kadr potensialını inkişaf etdirmək, bu məqsədlə tədbirlər görmək;

3.2.4. Cəmiyyətin maddi və qeyri-maddi aktivlərini idarə etmək və onlar barəsində sərəncam vermək;

3.2.5. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.6. müqavilə əsasında müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.7. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.8. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.9. əməkdaşlarını dövlət təltiflərinə və mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.10. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 4. Cəmiyyətin nizamnamə kapitalı, əmlakı və maliyyə fəaliyyətinin əsasları

4.1. Cəmiyyətin nizamnamə kapitalı 500,000,000 (beş yüz milyon) manatdır, onun səhmlərinin nominal dəyərindən təşkil olunur və nominal dəyəri 1 manat olan 500,000,000 (beş yüz milyon) ədəd adi səhmlərdən ibarətdir. Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur.

4.2. Cəmiyyətin nizamnamə kapitalı bu Nizamnaməyə uyğun olaraq Cəmiyyətin mülkiyyətinə verilmiş və qanunla müəyyən edilmiş qaydada qiymətləndirilmiş aktivlərin dəyərindən təşkil olunur. Cəmiyyətin nizamnamə kapitalına qoyulan maya pul vəsaitləri, tam ödənilmiş qiymətli kağızlar, digər əmlak, o cümlədən əmlak hüquqları və pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər.

4.3. Cəmiyyətin əmlakı əsas fondlardan, dövriyyə vəsaitlərindən, digər maddi və qeyri-maddi aktivlərdən ibarətdir. Cəmiyyətin əmlakının dəyəri onun balansında göstərilir.

4.4. Cəmiyyətin əmlakı aşağıda göstərilən mənbələr hesabına təşkil olunur:

4.4.1. nizamnamə kapitalına daxil olan əmlak;

4.4.2. təsərrüfat fəaliyyətinin həyata keçirilməsindən daxil olan gəlirlər;

4.4.3. cəlb olunan investisiyalar, o cümlədən kredit təşkilatlarından cəlb olunan vəsaitlər;

4.4.4. Cəmiyyətin öz fəaliyyət prosesində istehsal və əldə etdiyi əmlak;

4.4.5. qanunla qadağan olunmayan digər mənbələr.

4.5. Cəmiyyət öz əmlakından yalnız Fərmanda və bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə və fəaliyyət istiqamətlərinə uyğun istifadə edir. Cəmiyyət öz əmlakı üzərində sahiblik, istifadə və sərəncam vermək hüquqlarını bu Nizamnamənin 1.4-cü bəndində nəzərdə tutulan normativ hüquqi aktlara və bu Nizamnaməyə uyğun olaraq həyata keçirir.

4.6. Cəmiyyətin nizamnamə kapitalının artırılması və ya azaldılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirilir.

4.7. Cəmiyyət qanunla müəyyən edilən vergiləri və digər dövlət ödənişlərini ödədikdən sonra özünün və strukturuna daxil olan qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

4.8. Dövlət Cəmiyyətin öhdəliklərinə görə cavabdeh deyildir və Cəmiyyətin fəaliyyəti ilə bağlı zərərə görə dövlətə məxsus səhmlərin dəyəri həddində risk daşıyır. Cəmiyyət öz öhdəlikləri üçün mülkiyyətində olan əmlakla cavabdehdir.

4.9. Cəmiyyət dövlətin üzərinə götürdüyü hər hansı öhdəliklərə görə cavabdeh deyildir.

## 5. Cəmiyyətin ali idarəetmə orqanı

5.1. Cəmiyyətin ali idarəetmə orqanı onun ümumi yığıncağıdır (bundan sonra – Ümumi Yığıncaq).

5.2. Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlər Fərmana uyğun olaraq həyata keçirilir.

## 6. Cəmiyyətin Müşahidə Şurası

6.1. Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti Cəmiyyətin Müşahidə Şurası (bundan sonra – Müşahidə Şurası)

həyata keçirir. Müşahidə Şurası öz fəaliyyətinin nəticələrinə görə Ümumi Yığıncaq qarşısında cavabdehlik daşıyır.

6.2. Müşahidə Şurasının tərkibi 3 üzvdən – Müşahidə Şurasının sədri və 2 üzvdən ibarətdir. Müşahidə Şurasının sədri və üzvləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

6.3. Müşahidə Şurası üzvlərinin səlahiyyət müddəti 3 (üç) il təşkil edir.

6.4. Cəmiyyətin Müşahidə Şurasının vəzifələri aşağıdakılardır:

6.4.1. Cəmiyyətin uzunmüddətli inkişaf strategiyasını təsdiq etmək;

6.4.2. Cəmiyyətin əməkhaqqı sistemini müəyyən etmək, xərclər və gəlirlər smetasını təsdiq etmək və onun icrasına nəzarəti həyata keçirmək;

6.4.3. Cəmiyyətin daxili audit xidmətini təsis etmək və onun əsasnaməsini təsdiq etmək;

6.4.4. Cəmiyyətin müstəqil auditorunu müəyyən etmək, bununla bağlı müqavilənin bağlanılmasına, onun dəyişdirilməsinə və ona xitam verilməsinə razılıq vermək;

6.4.5. müstəqil auditorun və daxili audit xidmətinin yoxlamalarının nəticələrinə dair tədbirlər görmək;

6.4.6. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılmasına dair Nazirliyə təkliflər vermək;

6.4.7. aidiyyəti şəxsə bağlanılması nəzərdə tutulan və dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizinədək hissəsini təşkil edən əqdləri təsdiq etmək;

6.4.8. Cəmiyyətin fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasəti, daxili qaydaları təsdiq etmək;

6.4.9. Cəmiyyətin fəaliyyətinin müntəzəm monitorinqinə və qiymətləndirilməsinə imkan verən hesabatlılıq sistemini yaratmaq, normativ hüquqi aktlarda başqa qayda nəzərdə tutulmadığı halda, Cəmiyyətin maliyyə və digər hesabatlarının formasını təsdiq etmək və təqdim olunması müddətlərini müəyyənləşdirmək;

6.4.10. Cəmiyyətin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı monitorinq aparmaq və onun nəticələrinə əsasən tədbirlər görmək;

6.4.11. Cəmiyyətin filial və nümayəndəliklərini yaratmaq, onların əsasnamələrini, habelə tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini təsdiq etmək;

6.4.12. Cəmiyyətin tabeliyində hüquqi şəxslərin yaradılması ilə bağlı Nazirliyə müraciət etmək;

6.4.13. Cəmiyyətin mənfəətinin və zərərinin bölüşdürülməsi ilə bağlı sənədləri, həmçinin illik hesabatları və maliyyə hesabatlarını təsdiq edilməsi üçün Nazirliyə təqdim etmək;

6.4.14. Cəmiyyətin dayanıqlı inkişafa dair hesabatını təsdiq etmək;

6.4.15. bu Nizamnamənin 3-cü hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi və Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.

6.5. Cəmiyyətin Müşahidə Şurasının üzvləri adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

6.6. Müşahidə Şurasının sədri 3 (üç) ayda bir dəfədən az olmayaraq Müşahidə Şurasının iclasını çağırır və iclaslara sədrlik edir. Müşahidə Şurasının iclaslarının keçirilməsi təşəbbüsü ilə Ümumi Yığıncaq, Müşahidə Şurasının üzvü və ya Baş direktor çıxış edir.

6.7. Müşahidə Şurasının iclasları onun üzvlərinin əyani (bilavasitə) iştirakı ilə və ya informasiya texnologiyalarından istifadə etməklə distant formada keçirilə bilər. Müşahidə Şurasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Müşahidə Şurasının iclaslarına Müşahidə Şurasının üzvü olmayan şəxslər də dəvət oluna bilərlər. Müşahidə Şurasının iclasında hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Müşahidə Şurasında səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

6.8. Müşahidə Şurasının iclaslarının nəticələri iclasa sədrlik edən və iclas katibi tərəfindən imzalanmaqla rəsmiləşdirilir.

## 7. Cəmiyyətin Baş direktoru

7.1. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi Baş direktor həyata keçirir. Baş direktor Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

7.2. Baş direktor:

7.2.1. Cəmiyyətin Nizamnaməsində, habelə nizamnamə kapitalında dəyişikliklər edilməsi barədə Ümumi Yığıncağa təkliflər verilməsi üçün Müşahidə Şurasına müraciət edir;

7.2.2. Cəmiyyətin inkişaf strategiyasının formalaşdırılması məqsədilə Müşahidə Şurasına təkliflər verir;

7.2.3. Ümumi Yığıncağın və Müşahidə Şurasının qərarlarının icrasını təmin edir;

7.2.4. Cəmiyyətin əməkdaşları arasında vəzifə bölgüsünü müəyyənləşdirir;

7.2.5. Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Nizamnaməyə uyğun olaraq, Cəmiyyətin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi və onun hüquqlarının həyata keçirilməsi üçün zəruri tədbirlər görür;

7.2.6. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Cəmiyyətin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

7.2.7. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında Nazirliyə təkliflər verilməsi üçün Müşahidə Şurasına müraciət edir;

7.2.8. dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə münasibətdə Cəmiyyəti təmsil edir;

7.2.9. Cəmiyyətin strukturuna daxil olan qurumların fəaliyyətinə dair illik iş planlarını və onların icra vəziyyətinə dair hesabatları təsdiq edir;

7.2.10. Cəmiyyətin strukturuna daxil olan qurumların istehsal və təsərrüfat funksiyalarının tam və ya qismən mərkəzləşdirilməsinə dair qərar qəbul edir;

7.2.11. Cəmiyyətin strukturuna daxil olan qurumlar arasında mübahisələrin həlli istiqamətində tədbirlər görür;

7.2.12. Cəmiyyətin xarici dövlətlərin aidiyyəti qurumları ilə birgə işinin məqsədəuyğunluğu barədə qərar qəbul edir;

7.2.13. Cəmiyyətin tabeliyində olan hüquqi şəxslərin strukturunu, ştat cədvəlini və əməyin ödənişi fondunu təsdiq edir;

7.2.14. Cəmiyyətin struktur bölmələrinin (filial və nümayəndəliklər istisna olmaqla) əsasnamələrini təsdiq edir;

7.2.15. xarici tərəfdaşların iştirakı ilə müştərək müəssisələrin yaradılması ilə bağlı Müşahidə Şurasına təkliflər verir;

7.2.16. bu Nizamnamənin 6.4.6-cı yarımbəndinin tələbləri nəzərə alınmaqla müqavilələr bağlayır, etibarnamələr verir, banklarda hesablaşma hesabı və digər hesablar açır;

7.2.17. Cəmiyyətin aparatının və tabeliyində olan hüquqi şəxslərin işçilərini vəzifəyə təyin edir və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

7.2.18. Cəmiyyətin tabeliyində olan hüquqi şəxslərin, filial və nümayəndəliklərinin rəhbərlərini müəyyən edilmiş qaydada vəzifəyə təyin edir və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

7.2.19. Cəmiyyətin mənfəətinin və zərərinin bölüşdürülməsi ilə bağlı sənədləri, həmçinin illik hesabatları və maliyyə hesabatlarını Müşahidə Şurasına təqdim edir;

7.2.20. Cəmiyyətin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

7.2.21. malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üçün satınalma komissiyalarını yaradır;

7.2.22. fəaliyyət istiqamətləri üzrə dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər görür;

7.2.23. Ümumi Yığıncağın və Müşahidə Şurasının səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar qəbul edir.

7.3. Baş direktor adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidir, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidir.

## 8. Cəmiyyətdə uçot, hesabat və nəzarət

8.1. Cəmiyyət “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib və təqdim edir. Cəmiyyət maliyyə

hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq tərtib edir.

8.2. Cəmiyyət “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

8.3. Cəmiyyətin maliyyə ili yanvarın 1-dən başlayır və dekabrın 31-də başa çatır (birinci maliyyə ili qeydiyyata alındığı vaxtdan başlayır və dekabrın 31-də başa çatır).

8.4. Cəmiyyət mühasibat uçotunu təşkil edir, tabeliyində olan hüquqi şəxslərin rüblük və illik maliyyə hesabatlarına baxır və təsdiq edir, Cəmiyyət üzrə illik birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını tərtib edərək ”Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təqdim edir.

8.5. Cəmiyyət tabeliyində olan hüquqi şəxslərin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasının aparılmasını təmin edir.

8.6. Müşahidə Şurasının sədri və üzvləri, Baş direktor, habelə Cəmiyyətin struktur bölmələrinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərləri özlərinin, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1.5–49-1.7-ci maddələri ilə müəyyən edilmiş qaydada təqdim etməlidirlər.

8.7. Müşahidə Şurasının sədri və üzvlərinin və ya Baş direktorun şəxsi marağı ilə Cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən hallarda Müşahidə Şurasının sədri və ya digər üzvü, Baş direktor bu barədə məlumatı Ümumi Yığıncağa yazılı şəkildə təqdim etməlidir. Cəmiyyətin maraqlarına zidd olan əqdlərin bağlanılması Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ayrı qayda nəzərdə tutulmadıqda, Ümumi Yığıncağın qərarı əsasında həyata keçirilə bilər.

## 9. Daxili audit

9.1. Cəmiyyətin daxili audit xidməti Müşahidə Şurasına tabedir. Daxili audit xidmətinin işini icra edən şəxslər öz funksiyalarını icra edərkən müstəqil qiymət vermək, nəticə çıxarmaq hüququna malikdirlər.

9.2. Daxili audit xidmətinin vəzifələri aşağıdakılardır:

9.2.1. Cəmiyyətin, o cümlədən tabeliyində olan hüquqi şəxslərin, idarə, filial və nümayəndəliklərinin fəaliyyətinin bu Nizamnamənin 1.4-cü bəndində nəzərdə tutulan normativ hüquqi aktlara və Cəmiyyətin daxili qaydalarına uyğunluğunu yoxlamaq;

9.2.2. Cəmiyyətin təsərrüfat fəaliyyətinin, habelə maliyyə vəziyyətinin dəqiq qiymətləndirilməsi məqsədilə bütün sahələrdə aparılan əməliyyatların mütəmadi auditini aparmaq;

9.2.3. daxili audit yoxlamalarının nəticələri haqqında, habelə aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üzrə Müşahidə Şurasına məlumat və təkliflər vermək;

9.2.4. Azərbaycan Respublikasının normativ hüquqi aktları və bu Nizamnamədə nəzərdə tutulmuş digər vəzifələri həyata keçirmək.

## 10. Cəmiyyətin müstəqil auditi

Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin müstəqil auditi Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir və Müşahidə Şurası tərəfindən təyin olunur.

## 11. Cəmiyyətin yenidən təşkili və ya ləğvi

Cəmiyyətin yenidən təşkili və ya ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 fevral tarixli 94 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

## "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin

## STRUKTURU

1. "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin aparatı.
2. "İqlim Elmi-İstehsalat Müəssisəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti.
3. "Sənayecihaz" Elmi-İstehsalat Müəssisəsi.
4. Təsərrüfat cəmiyyətləri, idarə, filial və nümayəndəliklər.